UOT 657.6

Rahib Nadir oğlu KAZIMOV,
iqtisad elmləri namizədi, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti
E-mail: kazimov-r.n@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2024.004.09

VERGİ AUDİTİ: MƏQSƏDİ, FUNKSİYALARI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - respublikanın iqtisadi subyektlərində vergi auditinin təşkili və aparılmasının müasir vəziyyətini qiymətləndirmək və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir.

Tədqiqatın metodologiyası - sistemli yanaşma, fundamental təhlil və adekvat informasiya.

Tədqiqatın tətbiqi əhəmiyyəti – vergi hesabatlılığının dürüstlüyünün və şəffaflılığının artırılmasında elmi-nəzəri mənbə qismində istifadə imkanları.

Tədqiqatın nəticələri – müasir şəraitdə Azərbaycan Respublikasında vergitutmanın auditinin inkişafı istiqamətləri qiymətləndirilmişdir.

Tədqiqatın orjinallığı və elmi yeniliyi – Azərbaycanda vergitutmanın auditinin metodologiyasının və metodikasının təkmilləşdirilməsi.

Açar sözlər: vergi uçotu, vergi auditi, bəyannamə, vergi yükü.

Giriş

Milli iqtisadiyyatın müasir inkişaf səviyyəsi biznesin idarə olunmasının, o cümlədən, iqtisadi subyektlərdə uçot və vergitutma siteminə daxili nəzarətin təkmilləşdirilməsini tələb edir. İdarəetmə sistemi nöqteyi-nəzərindən audit - nəzarətin xüsusi təşkilati forması və iqtisadi sistem subyektinə münasibətdə idarəetmə funksiyasının bir hissəsidir. İqtisadi subyektin təşkilati-hüquqi formasından asılı olmayaraq onların auditi operativ nəzarətin və uçotun aparılmasının və onun göstəricilərinin dürüstlüyü haqqında qərarın qəbul edilməsinin zəruri elementidir.

Məlumdur ki, maliyyə hesabatı istifadəçiləri maliyyə hesabatında və vergi bəyannamələrində formalaşmış informasiyaların dürüstlüyündə, təşkilatın maliyyə vəziyyətinə təsir göstərən vergi risklərinin qiymətləndirilməsində maraqlıdırlar. Vergi qanunvericiliyinin müntəzəm olaraq təkmilləşdirilməsi, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətin sərtləşdirilməsi, vergi məsələləri üzrə mübahisəli arbitraj işlərinin artması və s. səbəblərdən maliyyə və vergi hesabatında əks etdirilmiş informasiyaların dürüstlüyü haqqında müstəqil və obyektiv fikir bildirilməsi üçün qanunların düzgün tətbiqinə əsaslanan xüsusi biliyə və təcrübəyə malik müstəqil ekspertlərin xidmətlərinə ehtiyac yaranmışdır.

Vergi auditi- vergi ödəyicilərinin maraqları baxımından auditor şirkətləri tərəfindən təkliflərin hazırlanması, sənədlərin tərtib edilməsinə istiqamətlənmiş fəaliyyətdir, konkret vergi ödəyicisi tərəfindən peşəkar mütəxəssis köməyinin göstərilməsi hüququnun realizə olunması üsuludur. Xüsusi qeyd edilməlidir ki, vergitutma bazasının müəyyən olunmasının düzgünlüyünün ekspertizası vergi təhlükəsizliyini təmin edir. Aparılmış vergi auditi vasitəsi ilə iqtisadi subyektin mühasibat və vergi uçotunda mövcud səhvlər aşkar edilir və onların aradan qaldırılması, eləcə də, vergi risklərinin minimallaşdırılması və vergilərin optimallaşdırılması üzrə təkliflər də hazırlanır.

Vergi auditinin mahiyyəti və iqtisadi məzmunu

Təcrübə göstərir ki, əksər vergi ödəyiciləri vergi uçotunun qurulması və aparılmasına lazımi diqqət vermir, mühasiblər bu məsələdə müxtəlif yanaşmalardan istifadə etməyə cəhd edirlər. Hazırda ölkəmizdə auditor fəaliyyəti "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, Beynəlxalq Audit Standartları, Azərbaycan Respublikası Auditorlar Palatasının normativ aktları və digər qanunvericilik aktları ilə tənzimlənir. Sözügedən qanuna müvafiq olaraq audit

təşkilatları, fərdi auditorlar auditor xidmətləri ilə yanaşı auditor fəaliyyəti ilə əlaqədar digər xidmətlər də, o cümlədən, vergi məsləhətləri, vergi uçotunun qurulması, bərpası və aparılması, vergi hesablamalarının və bəyannamələrin tərtib olunması üzrə xidmətlər göstərə bilərlər ki, bu da vergi öhdəliklərinin auditi, sadəcə olaraq, təsərrüfat subyektlərində vergi auditini səciyyələndirir [1; 2].

Vergi auditi- auditor xidmətlərinin geniş tələb olunan növlərindən biridir. Ölkənin uçot-nəzarət praktikasında “vergi auditi” anlayışı yenidir, hələ də onun necə təqdim olunması məsələsi diskussiya obyekti olaraq qalmaqdadır və bu baxımdan, müxtəlif tərifl ərə istinad etmək lazım gəlir. Belə ki, bəzi müəlliflərə görə vergitutmanın auditi müəyyən dövr üçün vergitutma bazasının formalaşdırılmasının düzgünlüyü, eləcə də, vergi və yığımların hesablanması və ödənilməsi, büdcə və qeyri-büdcə fondları ilə hesablaşmaların vəziyyəti, mühasibat və vergi uçotunun mövcud qanunvericilik normalarına uyğunluğu kimi məsələlərin müəyyən edilməsi məqsədi ilə təşkilatın mühasibat və vergi uçotu sisteminin müstəqil ekspert qiymətləndirilməsidir [5, s.162].

Digər mütəxəssislər isə belə hesab edirlər ki, vergi auditi- maliyyə sənədləşmələrinin vergi qanunvericiliyinə uyğunluğunun yoxlanmasıdır və üç əsas məqsədə - ödəniləcək vergi məbləğinin hesablanmasının düzgünlüyünün müəyyən edilməsinə, iqtisadi subyektin rəhbərliyinin vergi və yığımlar üzrə qanunvericiliyin pozulması ilə əlaqədar arzuolunmaz nəticələri (cərimə, peniya) haqqında xəbərdar edilməsinə, vergitutmanın sonrakı optimallaşdırılması üçün yoxlanılan təşkilatın rəhbərliyinə zəruri informasiyanın təqdim edilməsinə fokuslanmışdır [11, s.65].

Fikrimizcə, vergi auditi dürüstlük, vergilərin formalaşması, uçotda əks etdirilməsi və vergi və digər ödənişlərin büdcəyə və qeyri-büdcə fondalrına ödənilməsi qaydasının bütün aspektlərdə qanunvericiliklə müəyyən edilmiş normalara uyğunluğu haqqında fikir bildirmək məqsədi ilə iqtisadi subyektin mühasibat və vergi hesabatının nəzərdən keçirilməsi üzrə auditor təşkilatı tərəfindən xüsusi auditor tapşırığının yerinə yetirilməsidir.

Yoxlanılan təsərrüfat subyektinin mühasibat və vergi hesabatları, onun ilkin sənədləri, vergi reyestrləri, müqavilələr və digər sənədlər vergi auditinin obyekti qismində çıxış edir. Vergi auditinin həyata keçirilməsi zamanı aşağıdakı məsələlər həll olunur:

- hesablanmış və ödənilmiş vergilərin vergi qanunvericiliyi normalarına müvafiqliyi baxımından vergi öhdəliklərinin yoxlanması;
- vergitutmanın planlaşdırılması və optimallaşdırılması;
- maliyyə-təsərrüfat fəaliyyəti prosesində vergitutmanın problemli yerlərinin diaqnostikası;
- korporativ struktur və kontragentlərlə hüquqi münasibətlər nəzərə alınmaqla vergi ödəmələrinin hesablanması və vergi güzəştlərindən istifadənin təhlili;
- bəyannamənin tərtib edilməsinin düzgünlüyünün və bütövlükdə, eləcə də vergi növləri üzrə müştəri- təşkilatın hesablaşmalarının yoxlanması [3, s.65].

Vergi auditinin həyata keçirilməsi prosesində aşağıdakı məsələlər qiymətləndirilir:

- iqtisadi subyektin vergi uçotunun respublikada vergi uçotunun aparılması və vergi hesabatının tərtib olunmasını tənzimləyən normativ aktların tələblərinə müvafiqliyi;
- yoxlama prosesində auditor təşkilatına təqdim olunan iqtisadi subyektin vergi hesabatının onun ilkin uçot və fəaliyyəti haqqında məlumatlara uyğunluğu;
- vergi uçotunda aşkar edilmiş təhriflərin maliyyə nəticələri və onların aradan qaldırılması yolları;
- iqtisadi subyekt tərəfindən tətbiq olunan vergi uçotu metodikasına bir sıra düzəlişlərin edilməsi [2; 12].

İqtisadi subyekt tərəfindən vergi və yığımların hesablanmasının və büdcə və qeyri-büdcə fondlarına ödənilməsinin düzgünlüyünün yoxlanması və təsdiq edilməsi həm bütün növ vergilər üzrə, həmçinin də ayrı-ayrı vergi növü üzrə həyata keçirilə bilər. Bunlar nəzərə alınmaqla vergi auditini müvafiq olaraq kompleks, tematik və struktur auditi kimi təsnifləşdirmək olar. Kompleks vergi auditi təsərrüfat subyektinin il ərzində ödədiyi bütün vergilər üzrə bəyannamələrin tərtib edilməsinin və hesablamaların düzgünlüyünün yoxlanmasıdır. Tematik vergi auditi təsərrüfat subyektinin il ərzində ödədiyi ayrı-ayrı vergilər üzrə bəyannamələrin tərtib edilməsinin və hesablamaların

düzgünlüyünün yoxlanmasıdır. Struktur vergi auditi- hüquqi şəxs tərəfindən onun ayrılmış bölməsinin yerləşdiyi yer üzrə ödədiyi ayrı-ayrı vergilər üzrə bəyannamələrin tərtib edilməsinin və hesablaş-maların düzgünlüyünün yoxlanmasıdır. Auditin bu növü ayrılmış bölmələrin şaxələnmiş şəbəkələrinə malik iri müəssisələr və ya maliyyə-sənaye qrupları üçün çox aktualdır və geniş tətbiq olunur [2; 3].(Зотикова, Налоговый аудит, 2021 s.14-15,) Yuxarıda qeyd olunanlara rəğmən vurğulamaq lazımdır ki, vergitutmanın auditi mütləq xarakter daşımasa da inkişaf meyli müşahidə olunmaqdadır.

Qeyd etmək olar ki, audit şirkəti və ya fərdi auditor vergilərin hesablanması və ödənilməsinə nəzarət edir, zəruri hesabatları hazırlayır və aparır, riskləri qiymətləndirir və vergitutma məsələləri üzrə məsləhətləşmələri aparır. Auditin bu növünün əhəmiyyəti onunla izah olunur ki, ümumi auditin tərkibində aparılmış vergilərin auditi vergi uçotu prosesini tam əhatə etmir və bütün hallarda təsərrüfat subyektlərində vergilərin hesablanması prosesi ilə bağlı vəziyyət olduğu kimi səciyyələndirilmir. Bu da, öz növbəsində, yoxlanılan təşkilatlarda vergi risklərinin yaranmasına və cərimə və digər sanksiya tədbirləri formasında rəhbərliyin vergi məsuliyyətinə cəlb olunması ilə nəticələnə bilər.

Məsələyə bu aspektdən yanaşaraq vurğulamaq lazımdır ki, vergitutmanın auditi şirkətdə maliyyə (mühasibat) uçotunun təşkilini obyektiv qiymətləndirməyə, hesabat dövrü üçün vergilərin hesablanmasının və ödənilməsinin, büdcə və qeyri-büdcə ilə hesablaşmaların vəziyyətinin əks etdirilməsinin düzgünlüyünü müəyyən etməyə imkan verir. Vergitutma auditinin nəticəsində yoxlanılan təşkilatın vergi riskləri qiymətləndirilir və onların minimuma endirilməsi imkanları müəyyən olunur. Vergi auditi vergi risklərindən və məsuliyyətdən (cərimə, peniya) qaçmağa imkan verir ki, nəticədə iqtisadi subyekt rəhbərliyini vergi müfəttişlərinin yoxlamasının arzuolunmaz maliyyə nəticələri ilə məlumatlandırılır. Bu növ auditin yekununda aşkar edilmiş səhvlərin düzəldilməsi üzrə peşəkar təkliflər hazırlanır [5, s.164].

Vergi yükünün qiymətləndirilməsi

Dövlətin maliyyə bazasının formalaşması problemləri sırasında vergi potensialının strukturlaşdırılması problemi ilə yanaşı vergi yükünün həcminin müəyyən edilməsi xüsusi yer tutur. “Vergi yükü” termini müəyyən maliyyə göstəricisinə aid olan nisbi göstərici hesab olunur. Vergi yükü – təsərrüfat fəaliyyətinin müəyyən dövrü üzrə vergi ödəyicisi tərəfindən ödənilən bütün vergilərin məcmusudur. Bu göstərici bütövlükdə ölkə üçün, eləcə də ayrı-ayrı vergi ödəyiciləri üçün hesablana bilər. Statistik olaraq ölkə üzrə ümumi vergi yükü vergi ödəmələrinin ümumi milli məhsulda payı kimi hesablanır.

Təsərrüfat subyektinin fəaliyyətinin vergi təhlilinin aparılması mərhələsində tədqiq olunan dövr üçün vergi və yığım məbləğlərinin dinamikası müəyyən olunur. Belə ki, vergilər kəsiyində artım sürəti hesablanır, dinamikasında nəzərəçarpacaq dəyişikliklər baş verən vergilər, həmin dəyişiklikləri doğuran səbəblər müəyyən edilir. Vergi və yığımlar obyektinə və ödənmə mənbəyinə görə fərqləndiyindən mütləq vergi yükü ilə yanaşı onun nisbi kəmiyyəti də müəyyən edilməlidir. Onlar vergi yükünün satışdan pul gəliri, mənfəət və xalis mənfəət, xərclər (maya dəyəri) kimi maliyyə-iqtisadi göstəricilərə təsir dərəcəsini səciyyələndirir.

Belə bir məsələni vurğulamaq olar ki, respublikanın müasir vergitutma sistemində əksər şirkətlər özlərində güclü vergi yükünün mövcudluğunu hiss edir. Belə ki, vergilər istənilən kommersiya şirkətinin xərclərində nəzərəçarpacaq paya malikdir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, vergi siyasətinin səmərəliliyi ilk növbədə vergi yükünün optimal səviyyəsinin müəyyən edilməsindən asılıdır. Belə ki, vergi yükünün yüksək olması təsərrüfat subyektlərinin normal fəaliyyətinə mənfi təsir göstərir, yəni, aktivlik azalır. Bu, daha çox, vergidən yayınma meyillərinin yaranması, kölgə iqtisadiyyatının artması ilə nəticələnir.

Məsələyə bu aspektdən yanaşaraq qeyd etmək lazımdır ki, vergi auditinin əhatə etdiyi mühüm məsələlərdən biri vergi yükünün müəyyən edilməsi, qiymətləndirilməsi və optimallaşdırılmasıdır. Vergilərin düzgün hesablanmaması vergi orqanları tərəfindən cərimə və faizlərin təqdim edilməsi ilə nəticələnir ki, bu da, şirkətlərin mənfəətinin azalmasına səbəb olur. Qeyd olunanları nəzərə

alaraq vurğulamaq olar ki, vergilərin optimallaşdırılması metodlarından düzgün istifadə olunmaması şirkətlərin rəhbərliyinə və ya baş mühasiblərə qarşı cinayət işlərinin açılması ilə də nəticələnə bilər. Beləliklə, təsərrüfat subyektlərində auditin bu növünün tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Bu istiqamətdə müəssisədə vergitutmanın dövri olaraq auditinin aparılması üçün vergi yükünün həcmi və strukturu haqqında obyektiv və müxtəlif tərəfləri təqdim edən çoxsaylı parametrlərin dəyişməsinə həssas fərqli yanaşmalara əsaslanan kəmiyyət metodikalarından istifadə olunur. Həmin metodikaları nəzərdən keçirməklə onların müsbət tərəflərini və çatışmazlıqlarını qiymətləndirək.

Vergi yükünün ağırlığının müəyyən edilməsi ilə əlaqədar bəzi müəlliflər tərəfindən hazırlanmış metodikaya əsasən vergi yükü müəssisənin ödədiyi bütün vergi məbləğinin pul gəlirinə nisbəti kimi hesablanır. Bu göstərici pul gəlirində vergilərin payını müəyyən etməyə imkan versə də, bu zaman vergilərin təsərrüfat subyektlərinin maliyyə vəziyyətinə təsirini xarakterizə etmir (hər bir növ verginin pul gəlirinə nisbəti nəzərə alınmadığına görə). Makrosəviyyədə vergi yükü tutulan bütün növ vergilərin ümumi məbləğinin məcmu milli məhsula nisbəti kimi müəyyən olunur. Başqa sözlə, bu göstərici cəmiyyətin istehsal etdiyi məhsulun büdcə mexanizmləri vasitəsi ilə yenidən bölüşdürülən hissəsini əks etdirir. Konkret vergi ödəyicisi üçün vergi yükü onun məcmu gəlirlərinin büdcəyə ödənilən payını səciyyələndirir.

M.N.Kreyninin təklif etdiyi metodikaya əsasən vergi yükü vergi məbləğinin onun ödənmə mənbəyinə nisbəti kimi hesablanır. Sözügedən metodikada iqtisadi subyektin mənfəəti inteqral göstərici olaraq qəbul olunur və bütün vergi məbləğləri həmin göstəriciyə nisbətdə nəzərə alınır. Həmin metodika üzrə vergi yükünün müəyyən edilməsi zamanı mütəxəssislər ideal situasiyadan çıxış edirlər (iqtisadi subyekt ümumiyyətlə vergi ödəmir). Nəzərdən keçirilən metodika birbaşa vergilərin təsərrüfat subyektlərinin maliyyə vəziyyətinə təsirinin təhlilinin effektli vasitəsi olsa da bu halda dolayı vergilərin təsiri qiymətləndirilmir [3, s.39]:

$$VY=\frac{P^{g}-X^{dvna}-M^{x}}{P^{g}-X^{dvna}}$$

Burada, P^{g}- pul gəliri, X^{dvna} – dolayı vergilər nəzərə alınmadan məhsul istehsalına xərclər, M^{x} – xalis mənfəət (vergitutmadan sonra mənfəət).

A.Kaduşin və N.Mixaylova tərəfindən hazırlanmış metodika kəmiyyət xarakteri daşıyır və vergi yükünün konkret təsərrüfat subyekti tərəfindən yaradılmış əlavə dəyərin payı kimi qiymətləndirilməsini nəzərdə tutur. İnteqral göstərici müxtəlif tip istehsallar üçün vergi yükünün orta qiymətləndirilməsinə imkan verir. Sözügedən metodikadan istifadə zamanı vergi dərəcələrinin dəyişməsinin və güzəştlərin artmasının təşkilatın inkişafı tempinə təsirini hesablamaq imkanı yaranır. Bu metodikanın çatışmazlığı onunla səciyyələnir ki, hesablamalara əmlak vergisi və digər vergilər daxil edilmir ki, fikrimizcə, onlar müəssisənin maliyyə vəziyyətinə az təsir göstərmir [3, s. 39]:

$$VY=\frac{B^{m}/A^{x}}{M^{x}\ /A^{x}}$$

burada, B^{m} – balans məlumatları, A^{x} – xalis aktivlər, M^{x}- vergitutmadan sonra mənfəət (xalis mənfəət)

Y.A.Kirovanın təklif etdiyi metodika müəyyən maraq doğurur. Bu metodika əsasında vergi yükünün mütləq və nisbi göstəricisi hesablanır. Vergi yükünün mütləq göstəricisi iqtisadi subyektin büdcə qarşısında vergi öhdəliklərinin mütləq məbləğini göstərir. Bu zaman sözügedən göstərici iqtisadi subyektin vergi öhdəliklərinin gərginliyini əks etdirmir, bununla əlaqədar onun nisbi göstəricisi - mütləq vergi yükü məbləğinin (MVY) yeni yaradılmış dəyərə (YYD) nisbəti hesablanır. Başqa sözlə, vergi ödəmələri məbləğləri onların ödənmə mənbələri ilə nisbəti ilə müəyyənləşdirilir [7, c. 2422]:

$$MVY=VM+HP$$

burada, VM – dövr üzrə hesablanmış vergilərin ümumi məbləği, HP –vergi orqanının qərarı ilə hesablanmış peniya.

Nisbi vergi yükü aşağıdakı düsturla hesablanır:

$$NVY=\frac{MVY+ƏH+BKFÖ}{YYD}$$

burada, ƏH- əməkhaqqı, BKFÖ – büdcədənkənar fondlara ödənişlər, YYD – yeni yaradılmış dəyər.

Sahə mənsubiyyətindən asılı olmayaraq təşkilatların vergi yükünün müqayisə edilməsi imkanı sözügedən metodikanın üstünlüyünü səciyyələndirir. Lakin bu metodikada fondtutumu, əməktutumu, rentabellik, cari aktivlərin dövretmə sürəti kimi göstəricilərin təsiri nəzərə alınmır və vergilərin sayı, dərəcələri və güzəştlərin dəyişməsindən asılı olaraq şirkətin işgüzar aktivliyinin dəyişməsini proqnozlaşdırmağa imkan vermir [3, s.39].

Vergi yükünün müəyyən edilməsi üçün digər iqtisadçı M.İ.Litvinin metodikası vergi yükünü vergilərin və digər ödəmə öhdəliklərinin miqdarı, eləcə də iqtisadi subyektlərin vergilərinin strukturu və vergilərin tutulması mexanizmləri ilə əlaqələndirir. Vergi yükünün ümumi göstəricisi ilə yanaşı metodikada ayrı-ayrı vergilərin və vergi qruplarının konkret ödəmə mənbələrinə nisbəti kimi hesablanan fərdi göstəricilərdən də istifadə olunur. Həmin göstəricilərdən istifadə edərək iqtisadi subyektin sahə mənsubiyyətindən asılı olaraq optimal vergi yükünü müəyyən etmək olar [3, s.39]. Vergi ödəmələri məbləğinə fiziki şəxslərin gəlirlərindən vergi də nəzərə alınmaqla təşkilatın ödədiyi bütün növ vergilər daxil edilir:

$$VY=[(VÖ^{b}+VÖ^{bkf}) / VÖ^{m}\times 100\%$$

Burada, $VÖ^{b}+VÖ^{bkf}$ – büdcəyə və büdcədənkənar fondlara hesablanmış vergi məbləği, $VÖ^{m}$ – vergilərin ödənilməsi üçün vəsait mənbəyi məbləği.

Bu metodika praktiki əhəmiyyət kəsb edir. Belə ki, o, vergilərin təşkilatın pul gəlirlərində, yaradılmış hər manatı hesabı ilə mənfəəti və əməkhaqqını, amortizasiyanı, vergiləri və xalis mənfəətin payını müəyyən etməyə imkan verir. Vergi uçotunda hesablanmış əməkhaqqı pul gəlirinə daxil edildiyindən vergilərin tərkibinə fiziki şəxslərin gəlirlərindən vergilərin daxil edilməsi özünü doğruldur, daha doğrusu, fiziki şəxslərin gəlirlərindən vergilər pul gəlirinə daxildir və o, pul gəlirinin bir hissəsini təşkil edir.

T.K.Ostrovenkonun hazırladığı metodikada vergi yükünü səciyyələndirən göstəricilər sistemi fərdi və ümumi olmaqla iki qrupda cəmləşdirilmişdir. Ümumiləşdirici göstəricilərə iqtisadi subyektin gəlirinə düşən vergi yükü, maliyyə nəticələrinə düşən vergi yükü, xüsusi kapitala düşən vergi yükü, vergitutmadan əvvəl mənfəətə düşən vergi yükü, bir işçi hesabı ilə vergi yükü aiddir. Konkretliliyi və informativliyi ilə fərqlənən fərdi göstəricilər örtülmə yerləri üzrə (maya dəyəri, satışdan pul gəlirləri, maliyyə nəticələri, xalis mənfəət və xüsusi təyinatlı fondlar) hesablanır [3, s.40].

$$VY=VY^{Pg}+VY^{MD}+VY^{X}+VY^{ƏH}+VY^{Ə}$$

burada, VY^{Pg} –satışdan pul gəlirinə vergi yükü, VY^{MD} – maya dəyərinə vergi yükü, VY^{X} - xərclərə vergi yükü, $VY^{ƏH}$ - əməkhaqqı fonduna vergi yükü, $VY^{Ə}$ – müəssisənin əmlakına vergi yükü.

Metodikanın müsbət tərəfi qarşıya qoyulmuş idarəetmə məsələlərindən asılı olaraq müxtəlif detallaşdırma səviyyəsində vergi yükünün hesablanmasının mümkünlüyü ilə xarakterizə olunur.

Göründüyü kimi, vergi yükünün hesablanmasının yuxarıda qeyd olunan metodikalarının müəyyən müsbət tərəfləri və çatışmazlıqları vardır. Fikrimizcə, inteqral metodika, yəni M.N.Kreyninin və M.İ.Litvinin təklif etdikləri metodika əsasında vergitutmanın bütün aspektlərini özündə ehtiva edən optimal metodikanın hazırlanması məqsədəuyğun olardı.

Respublikada mövcud metodikaya əsasən vergi yükü (VY) AR İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Azərbaycan Dövlət Gömrük Komitəsi xətti ilə büdcəyə toplanmış vəsaitlərin, eləcə də məcburi dövlət sosial sığorta haqları üzrə Dövlət Sosial Müdafiə Fonduna toplanmış vəsaitlərin ümumi daxili məhsula (ÜDM) nisbəti kimi hesablanır. Vergi yükü göstəricisi pul gəlirində vergilərin payını müəyyən etməyə imkan versə də vergilərin iqtisadi subyektin maliyyə vəziyyətinə təsirini xarakterizə etmir, belə ki, hər bir vergi növünün satışdan pul gəlirinə nisbətini

nəzərə almır:

$$VY=\frac{VM}{ÜDM}\times 100\%$$

Burada, VM – vergi məbləği, ÜDM – ümumi daxili məhsul.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrdə vergi yükü 52%-dən (İsveç) 30% (ABŞ, Türkiyə) arasında tərəddüd edir. Son dövrlərdə yalnız üç ölkədə (Belçika, Almaniya, Norveç) onun cüzi azalması müşahidə olunmuşdur. Sözügedən göstəricidə cüzi tərəddüdlər vergi qanunvericiliyində milli xarakter daşıyan müxtəlif dəyişikliklərlə izah olunur. Bəzi ölkələrdə vergi yükünün artımı Avropada baş verən inteqrasiya prosesləri ilə əlaqədardır ki, həmin proseslər təsərrüfatçılıq, o cümlədən, vergitutmanın şərtlərinin uyğunlaşdırılmasını nəzərdə tutur[,s. 108].

Qeyd etmək lazımdır ki, ümumi vergi yükünün dinamikada təhlili göstərir ki, respublikada bu göstərici 2003-cü ildə 17,1%, 2007-ci ildə 21,4%, 2017-ci ildə 18,5% təşkil etmişdir. Son iki ildə Azərbaycanda vergi yükü cüzi dəyişilmişdir (11-15% civarında). Məcburi dövlət sosial sığorta haqqının ÜDM-də xüsusi çəkisi 4,85%, cəmi daxilolmada 26,25%, ƏDV üzrə vergi yükü hazırda 2,7% təşkil etmişdir [2].

Ümumi və vergi auditi arasındakı fərqlər

Hazırda ümumi və vergi auditinin nisbəti məsələsi diskussiya obyekti olmaqdadır. Maliyyə hesabatının auditi reqlamentləşdirilsə də, auditor fəaliyyətinin mühüm tərkib hissəsi hesab olunan vergi auditi konkret normativ bazaya malik deyildir və kifayət qədər öyrənilən elmi sahə deyildir [9, c.83]. Belə ki, bəzi müəlliflər auditin bu iki istiqamətinin qarşılıqlı çuğlaşdığını vurğulayır, daha doğrusu ümumi audit gedişində vergi auditi də aparılır. Fikrimizcə, bu, düzgün deyil. Belə ki, mühasibat (maliyyə) hesabatının auditi prosesində vergi auditindən fərqli olaraq seçmə qaydada vergilərin hesablanması və ödənilməsinin düzgünlüyü məsələləri yoxlanılır və nəticədə mühasibat hesabatının dürüstlüyü haqqında məlumatları özündə ehtiva edən seçmənin həcmi vergi hesabatına münasibətdə dürüst deyildir. Bununla əlaqədar, əksər təşkilatlar auditor şirkətləri ilə bağladıqları müqavilədə mütləq ümumi audit prosedurları ilə yanaşı vergi auditi ilə bağlı işlərin həcmi əks etdirilir [10]. Nisbətən kiçik müəssisələrdə vergi auditinin həyata keçirilməsi ilə əlaqədar işlərin aparılmaması elə də ciddi vergi risklərinin yaranmasına səbəb olmur.

Digər bir məsələ, vergi auditi ilə vergi məsləhətlərinin verilməsi sahəsində vergi auditinə yaxın olan xidmətlər arasında fərqin müəyyən edilməsidir. Fikrimizcə, bununla əlaqədar, nəzərə alınmalıdır ki, vergi auditi vergilərin hesablanmasının düzgünlüyünün, tamlığının və vaxtında ödənilməsi ilə bağlı yoxlama tədbirlərinin aparılmasına istiqamətlənmişdir. Vergi auditinə yaxın xidmətlər isə, ilk növbədə, vergi ödəyicilərinin vergi köçürmələrinin optimallaşdırılmasını, düzgün vergi uçotu sisteminin qurulması və vergitutmanın ayrı-ayrı məsələləri üzrə məsləhətlərin verilməsini nəzərdə tutur.

Nəticələrlə bağlı da mühasibat hesabatının auditi və vergi auditi arasında fərqlər mövcuddur. Vergi məsələləri üzrə müvafiq xidmətlərin göstərilməsinin nəticələrinə aşağıdakıları aid etmək olar:

• vergi qanunvericiliyi normalarının pozulması hallarının aşkar edilməsi zamanı iqtisadi subyekt üçün vergi hüquq pozuntularının və onların vergi nəticələrinin mövcudluğunu göstərmək;

• ümumilikdə iqtisadi subyektin vergitutma sisteminin, eləcə də onun ayrı-ayrı elementlərinin yaradılmasının yeni layihələrinin işlənməsi;

• mühasibat uçotu elementlərinin və registrlərin vergilərin hesablanmasının və büdcəyə və qeyri-büdcə fondlarına köçürülməsinin tamlığına, düzgünlüyünə və vaxtlılığına ciddi təsir göstərən vergilərin idarə olunmasının seçilmiş konsepsiyasına, vergi qanunvericiliyində dəyişikliklərə və digər amillərə adaptasiyası üzrə təkliflərin verilməsi;

• daimi fəaliyyət göstərən vergi planlaşdırması sisteminin yaradılmasına istiqamətlənmiş kompleks təşkilati-hüquqi və opereativ idarəetmə qərarlarının hazırlanması;

• vergi planlaşdırmasının, bu və ya digər optimallaşdırma modelinin səmərəliliyini təsdiq edən hesablamalar [6].

Aparılmış vergi auditinin nəticəsində auditor rəyi və hesabatı tərtib edilir. Həmin sənədlər

qanunvericiliklə reqlamentləşdirilməmişdir, lakin auditor təşkilatları tərəfindən yerinə yetirilmiş vergi auditinin nəticələrinin sənədləşdirilməsi üçün tərtib edilir. Auditorun hazırladığı hesabatda iqtisadi subyekt tərəfindən vergi ödənişlərinin tamlığı və hesablanmasının (o cümlədən, vergi güzəştlərinin tətbiqinin düzgünlüyü), uçotda əks etdirilməsinin düzgünlüyü və büdcə və qeyri-büdcə fondlarına vaxtında köçürülməsinin vaxtlılığı haqqında auditorların fikirləri əks etdirilir. Xüsusi vurğulamaq lazımdır ki, bu zaman, aparılmış vergi auditinin nəticələri haqqında rəy bütövlükdə mühasibat hesabatının dürüstlüyü haqqında auditor rəyindən ibarət deyildir. Hesabatda eyni zamanda, aşkar olunmuş pozuntuların aradan qaldırılması üzrə təkliflər və onların gələcəkdə təkrarlanmaması üçün addımların siyahısı, eləcə də, vergilərin hesablanması qaydası, o cümlədən, güzəştlərin tətbiqinin düzgünlüyü, təşkilatın rəhbərliyi tərəfindən xüsusi diqqət yetirilməli olan məsələlərin siyahısı, vergitutmanın optimallaşdırılması, vergitutma baxımından mühasibat və vergi uçotu sisteminin yaxşılaşdırılması üzrə təkliflər qeyd olunur [5].

Yuxarıda qeyd olunanları ümumiləşdirərək belə bir fikir formalaşdırmaq olar ki, mühasibat və vergi auditi bir-birinə yaxın olsalar da onlar arasında fərqlər mövcuddur. Bu zaman unutmaq olmaz ki, vergi məsləhətlərinin təqdim olunması sahəsində əlaqəli xidmətlərin göstərilməsindən müsbət nəticə o halda əldə oluna bilər ki, həmin xidmətlər ilkin olaraq vergi auditi çərçivəsində göstərilmiş olsun. Maliyyə informasiyalarının həcmi ilə müqayisədə vergi informasiyasının həcmi azdır. Buna görə də, ümumi auditdən fərqli olaraq vergi hesabatının və vergi uçotunun yoxlanması başdanbaşa metodu ilə aparılmalıdır. Mütləq audit yoxlanmasında keçən təsərrüfat subyektləri, əksər hallarda, auditor təşkilatları ilə bağlanmış müqavilədə vergi auditi ilə əlaqədar işlərin həcmini də qeyd edirlər. Əlbəttə, bu, işin ümumi dəyərini artırır, lakin, yoxlanılan təşkilatın vergi risklərindən və vergi pozuntuları üzrə arzuolunmaz vergi nəticələrindən sığortalanmış olurlar.

Vergi auditinin inkişaf perspektivləri

Vergi qanunvericiliyində daima aparılan düzəlişlərə və əlavələrin edilməsi, risklərin azaldılması və dövlət büdcəsinin artırılmasına nəzarət vasitəsi kimi vergi auditinin xüsusi əhəmiyyətinə baxmayaraq, onun respublikada inkişafı arzuolunan səviyyədə deyildir. Aparılan təhlillər göstərir ki, auditor şirkətləri tərəfindən göstərilən xidmətlərin ümumi həcmində maliyyə hesabatının auditinin payı çox yüksəkdir. Belə ki, respublikada göstərilən auditor xidmətləri üzrə müqavilələrin sayı 2019-cu ildə 6451, məbləği isə 53,6 mln. manat təşkil etmişdirsə, bu göstəricilər müvafiq olaraq 2022-ci ildə 6750 və 111 mln.manat olmuşdur. Yerinə yetirilmiş müqavilələrin sayı 2019-cu ildə 5205, məbləği 59,6 mln.manat, 2022-ci ildə 5338, məbləği 72 mln.manat təşkil etmişdir (cədvəl 1).

Cədvəl 1.

2019-2022-ci illər üzrə müqavilələr üzrə auditor təşkilatları tərəfindən yerinə yetirilmiş auditor xidmətlərinin həcminin təhlili

İllər	Böyük dördlük üzrə		Xarici hüquqi şəxslərin nişanından istifadə edən auditor təşkilatları		Yerli auditor təşkilatları		Sərbəst auditorlar	
	Sayı	Məbləği (mln.man)	Sayı	Məbləği (mln.man)	Sayı	Məbləği (mln.man)	Sayı	Məbləği (mln.man)
2019	677	41.4	380	7.6	2948	8.3	1200	2.3
2020	533	35.2	273	8.3	2178	7.8	1119	2.6
2021	719	47.3	300	8.4	2561	13.5	1202	2.8
2022	550	42,9	401	11,3	3042	13,7	1345	4,1
Cəmi:	**2479**	**166,8**	**1354**	**35,6**	**10729**	**43,3**	**4866**	**11,8**

Mənbə: Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyəti barədə 2017-2022-ci llər üzrə illik hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Aparılan hesablamalar göstərir ki, 2019-2022-ci illər üzrə yerinə yetirilmiş cəmi müqavilələrdə maliyyə hesabatlarının auditinin payı 2019-cu ildə 73,8 %, 2022-ci ildə 74,1 % təşkil etmişdir. Bu yüksək nəticələri vergi auditinə şamil etmək olmaz (cədvəl 2).

Cədvəl 2.

Vergi hesabatının auditi üzrə yerinə yetirilmiş müqavilələr (miqdarı/məbləği)

İllər	Böyük dördlük	Xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları	Yerli auditor şirkətləri	Sərbəst auditorlar
2019	3/ 66,5 min man.	1/ 4 min man.	31/ 102 min man.	8/ 43,4 min man.
2020	1/ 15,5 min man.	-	54/ 419,7 min man.	8/ 36,4 min man.
2021	1/ 15,5 min man.	2/ 15,3 min man.	79/ 271,6 min man.	14/ 43,2 min man
2022	3/86,5 min man.	7/243,0 min man.	74/492 min man.	5/ 24 min man.

Mənbə: Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyəti barədə 2017-2021-cillər üzrə illik hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, 2019-2022-ci illərdə yerinə yetirilmiş cəmi müqavilələrdə vergi hesabatının auditinin payı müvafiq olaraq 2019-cu ildə 0,8 %, 2022-ci ildə 2,0 % təşkil etmişdir. Vergi hesabatının auditi əsasən yerli şirkətlər, müəyyən dərəcədə də sərbəst auditorlar tərəfindən həyata keçirilmişdir. Bundan savayı, nəzərə almaq lazımdır ki, maliyyə hesabatının auditindən fərqli olaraq, vergi auditi reqlamentləşdirilməmişdir. Bu baxımdan, hazırkı dövrdə vergi auditinin tədqiqində müəyyən çətinliklər özünü göstərir. Məhz buna görə, fikrimizcə, təsərrüfat subyektlərinin auditi sistemində mühüm həlqəni təşkil edən vergi auditinin normativ bazasının yaradılması məsələsi çox aktualdır. Fikrimizcə, vergi auditinin texnologiyasını müəyyən edən bir sıra ciddi məsələlər tənzimlənməli, vergi auditinin dəqiq çərçivəsi müəyyən olunmalı, vergi auditinin təşkili və aparılması üzrə metodiki əsaslar işlənib hazırlanmalıdır.

Konkret vergilərin yoxlanması prosesi elə təşkil edilməlidir ki, yoxlamanın planı və proqramı kifayət qədər kompakt və universal olmalı, istər yoxlamanı həyata keçirən şirkətin rəhbərliyi, istərsə də iqtisadi subyektin rəhbərliyi və vergi ödəyiciləri tərəfindən keyfiyyətə nəzarətin həyata keçirilməsi mümkün və asan olsun. Ölkə təcrübəsində vergi hesabatının auditinin mahiyyətinin, onun məqsədinin, vəzifələrinin, aparılması prinsipləri ilə əlaqədar vergi hesabatının auditor yoxlanmasının bir sıra həll olunmamış təşkilati və metodiki məsələləri özünü göstərir. Auditin və vergi auditinin metodikasında müəyyən problemlər mövcuddur ki, bura konkret iqtisadi fəaliyyət növləri üzrə auditin aparılması metodikasının işlənməməsi, hesabatın ilkin təhlili üzrə qaydaların və təşkilat haqqında vergitutmanın auditinin səmərəli təşkili üçün zəruri informasiyaların mövcud olmamasını, vergi auditinin aparılması zamanı auditor riskinin əhəmiyyətinin müəyyən olunması və qiymətləndirilməsi ilə bağlı tədqiqatların aparılmamasını aid etmək olar .

Xüsusi olaraq qeyd edək ki, vergi auditinin geniş tətbiqi vergi orqanlarını çoxsaylı yoxlamalardan azad edə bilər, daha doğrusu, vergi auditi eyni zamanda dövlət və korporativ nəzarətin elementinə çevrilə bilər. Misal üçün, ilin sonunda bütün şirkətlərdə ümumi auditlə yanaşı vergi auditi də aparılmalıdır: bu halda auditorun hesabatına inam formalaşarsa və həmin maddələr qanuni əks etdirilərsə, vergi orqanları əlavə yoxlamalardan azad oluna bilər, beləliklə də, nəzarətlə birlikdə vergi məlumatlarının üzləşdirilməsi və yoxlanması üzrə işlərin təkrar həyata keçirilməsinə zərurət qalmayacaqdır. Daha doğrusu, vergi auditi dövlət tərəfindən vergilərin hesablanması kəsiyində şirkətlərin hesabatlarının yoxlanması ilə bağlı xərclərdən azad etmiş olar.

Nəticə

Fikrimizcə, vergi auditinin təkmilləşdirilməsi istiqamətində mühasibat və vergitutma məqsədləri üçün uçot siyasətinin maksimum yaxınlaşdırılması məqsədəuyğundur. Belə ki, maddi və qeyri-maddi aktivlərin amortizasiyasının hesablanması, maddi-istehsal ehtiyatlarının istehsala silinməsi, məhsulun istehsal maya dəyərinin müəyyən edilməsi, bitməmiş istehsalat və anbarda hazır məhsulun qiymətləndirilməsi və s. üzrə vahid qaydanın müəyyən edilməsi imkan verəcəkdir ki, mühasi-

bat uçotunda əks etdirilmiş bir çox əməliyyatlar dəyişiklik edilmədən mənfəət vergisinin hesablanmasında iştirak etsin.

Əksər müəlliflər tərəfindən işlənmiş metodikalar özündə kompleks prosedurları ehtiva etmir, yalnız mühasibat uçotu obyektlərinin və ya ayrı-ayrı təsərrüfat əməliyyatları ilə əlaqədar bir sıra hərəkətlərin siyahısını özündə əks etdirir. Vergitutmanın auditi auditor prosedurları ilə yanaşı informasiyanın toplanması və qiymətləndirilməsi üzrə spesifik prosedurların həyata keçirilməsini nəzərdə tutur. Təşkilatda vergitutmanın auditinin keyfiyyətinin yüksəldilməsi üçün audit olunan təsərrüfat subyektinin fəaliyyət spesifikasını, respublikada vergitutmanın xüsusiyyətlərini nəzərə alan, auditorların özünütənzimləyən təşkilatlarının firmadaxili standartlarında vergitutmanın auditinin aparılmasını, eləcə də analitik prosedurların siyahısını və onların həyata keçirilməsi qaydasını əks etdirən metodikasının hazırlanması praktiki zərurət təşkil edir.

Hazırda, özünəməxsus xüsusiyyətlərə malik olan ixtisaslaşmış təşkilatlarda, xüsusilə, büdcə təşkilatlarında vergi uçotuna və vergi auditinə kifayət qədər diqqət yetirilmir, ümumi auditin tərkib hissəsi kimi o, mövcud qanunvericiliklə zəif reqlamentləşdirilmişdir. Bu baxımdan, həmin təşkilatlarda da vergi uçotunun daha optimal modelinin işlənməsi və qanunla təsbit edilməsi praktiki zərurət doğurur. Bütün bunlar vergi auditinin hüquqi, metodoloji və metodiki əsaslarının işlənməsinin aktuallığını səciyyələndirir.

Yuxarıda qeyd olunanlar nəzərə alınmaqla vurğulamaq lazımdır ki, vergi auditinin auditor fəaliyyətinin müstəqil istiqaməti kimi nəzərdən keçirilməsi əsaslıdır və ümumi audit və vergi nəzarəti sisteminin, audit üzrə normativ bazanın yenidən qurulması və tamamlanmasını şərtləndirə bilər. Vergi orqanları təqdim olunan dürüst bəyannamələrin hazırlanması üçün mütləq şərt kimi vergi auditin fərqləndirilməsi hazırda həm ümumi auditin işini, eləcə də, vergi bəyannamələrinin, vergitutma bazasının hesablanmasının dürüstlüyünün yoxlanması üzrə təkrar işlərin aradan qaldırılması üzrə vergi orqanlarının işinin optimallaşdırılması üçün zəruridir. Eyni zamanda, vergilərin hesablanması mexanizminin dürüstlüyünün təsdiq edilməsi və onların optimallaşdırılması yolu ilə vergi auditi maliyyə risklərinin azaldılması üçün mühüm alətlərdən biridir. Bundan savayı, vergi auditi dövlət üçün mühümdür, çünki, dövlət büdcəsi vegi daxilolmaları hesabına formalaşır və bu, dövlətin stabil inkişafına və sosial əhəmiyyətli layihə və proqramların həyata keçirilməsinə zəmin yaradır.

ƏDƏBİYYAT

1. "Audit xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. – Bakı. 1994 (sonrakı dəyişikliklər və əlavələrlə).
2. Həsənli Y., Süleymanova A. Azərbaycan Respublikasında optimal vergi yükünün ekonometrik modelləşdirilməsi //Azərbaycanın vergi jurnalı. 1 (136). – 2018. – s.16-25.
3. Ахметшин А.Ф. Налоговый аудит отдельный элемент в системе общего аудита //Экономика, статистика, информатика. ВестникУМО. – 2014. – №6. – с.37-41
4. Баженов А.А., Кузнецов Д.В. Налогооблажение организаций финансового сектора экономики //Налоги и налогооблажение. – 2015. – №3. – с.15-19
5. Болгучева Р.Б. Теоретические и методические аспекты аудита налогообложения //Инновационные технологии в науке и образовании. – 2016. – №1–2 (5). – с.160-166
6. Василенко А.А. Характеристика специфических аудиторских услуг налогового аудита // Экономические науки. – 2013. – №4. – с.1182-1184
7. Гаджирагимова Д.Д., Юнусова Д.А. Совершенствование методики аудита налогооблажения организаций //Научно-методический эдектронный журнал «Концепт». – 2016. – Т.11. – с.2421-2425
8. Нюнха И.В. Возможные пути совершенствования аудита налогообложения в России // РГУ им.С.А.Есенина. – 2015. – с.71-79
9. Петракова Н.Г., Бабилиев Н.А., Онюшева М.А., Ростиславская К.А. Проблемы налогового аудита в современной России //Горный информационно-аналитический бюллетен. (научно-технический журнал). – 2016. – №12. – с.80-85

10. Садыгов М.М., Магеррамов Р.Б., Салаев Р.А., Мамедова Г.М., Мамедзаде Н.Р. Налоги и налогообложение в Азербайджане. Учебник. – Баку. ММ-С. 2020. – 460 с.
11. Салимова А.Д. Совершенствование методики аудита налогообложения //международный научный журнал «Символ науки. - №12/2017 ISSN 2410-700X. с.63-68
12. Сафонова М.Ф., Щербакова Е.А. Проблемы развития налогового аудита в Российской Федерации //Международный бухгалтерский учет. – 2014. – № 17. – с.26-33
13. Сафонова М.Ф., Калинина И.Н. Налоговый аудит (продвинутый уровень). – Краснодар: КубГАУ. 2021. – 41 с.

Рагиб Надир оглы Кязимов
Кандидат экономических наук, доцент
Азербайджанский Государственный
Экономический Университет
E-mail: kazimov-r.n@mail.ru

Налоговый аудит: цель, функции и перспективы развития

Резюме

Целью исследования является оценка современной положений организации и проведения налогового аудита в экономических субъектах республики и определения возможных направлений его совершенствовании.

Методология исследования – системный подход, фундаментальный анализ, адекватная информация.

Практическая значимость исследования – возможность использования в качестве научно-теоритического базы в повышении объективности и празрачности налоговой отчетности.

Результаты исследования – оценено напралений развития нологового аудита в Азербайджане

Оригинальность и научная новизна исследования - совершенствования методологии и методики налагового аудита в Азербайджане

Ключевые слова: налоговый учет, налоговый аудит, декларации, налоговая нагрузка.

Rahib Nadir Kazimov,
associate professor of economic skiences,
Azerbaijan State University of Economics (UNEC),
E-mail: kazimov-r.n@mail.ru

Tax audit: purpose, functions and development prospects

Summary

The purpose of the study is - to assess the current state of organization and conduct of tax audits in economic subjects of the republic and to determine directions for its improvement.

The methodology of the research - systematic approach, fundamental analysis and adequate information.

The practical importance of the research - possibilities of use as a scientific-theoretical source in increasing the honesty and transparency of tax reporting.

The results of the research - the directions of the development of the audit of taxation in the Republic of Azerbaijan under modern conditions were evaluated.

The originality and scientific novelty of the research - improvement of methodology and methodology of taxation audit in Azerbaijan.

Keywords: tax accounting, tax audit, declaration, tax burden.